*Müşfiq BORÇALI – 55*

# BORÇALIDAN DOĞAN İŞIQ

## *və ya SÖZÜN ZİRVƏSİ*



Hər bir xalqın tarixi, mədə-niy-yəti və mənəvi dəyərləri **onun ziyalılarının fədakar əməyi** ilə işıq-lanır. Vətənimizin belə **fədakar ziyalılardan** biri də 55 il öncə qədim Borçalı mahalının sazlı-sözlü, poeziya dolu torpağında dünyaya göz açmış, bütün mənalı ömrünü elmin, jurnalistikanın və mədəniy-yətin inkişa-fına həsr etmiş tanınmış borçalışünas alim, istedadlı yazıçı-jur-nalist, Prezident təqaüdçü-sü Müşfiq Borçalıdır. Bu gün təkcə Borçalı elinin deyil, bütün Azərbayca-nın fəxri olan bu görkəmli **şəxsiyyətin 55 illik yubileyini qürurla qeyd edirik.**

Jurnalistikanın incəliklərini dərindən mənimsə-yən, mahir pe-daqoq kimi minlərlə tələbəyə ilham verən, Borçalı folklorunun və mədəniyyətinin ən dəyərli nümunələrini toplayaraq gələcək nəsillərə ərməğan edən Müşfiq müəllim bu illər ərzində yo-rul-madan milli-mənəvi dəyərlərimizin keşikçisi olmuşdur. Onun rəhbərliyi ilə həyata keçirilən la-yihələr, qələmə aldığı sanballı elmi əsərlər, mət-buat səhifələrində qoyduğu dərin izlər Azər-bay-can mədəniyyəti və elminin zirvələrində parlayır.

**Bu yubiley yalnız bir şəxsin 55 illik ömür sal-naməsi deyil, həm də onun Azərbaycan elmi, ədə-biyyatı və jurnalistikasına verdiyi töhfələrin təntə-nəsidir. Müşfiq Borçalının zəngin yara-dıcılıq dün-yası, yüksək əzm və fədakar əməyi bir daha sübut edir ki, həqiqi ziyalılar xalqın mədəni xəzinəsini zəngin-ləşdirən əbədi işıqdır... İndi isə Müşfiq müəllimin keçdiyi mə-nalı ömür yoluna nəzər sa-laraq, onun yaratdığı dəyərli irsi qısaca da olsa, eh-tiramla yad edək:**

### Qədim Borçalı elində

1970-ci il yanvarın 22-də qədim Borçalı maha-lının Darvaz kəndində görkəmli türkoloq alim Mə-dəd Çobanovun ailəsində dünyaya göz açan Müş-fiq Borçalı elm və mədəniyyətlə zəngin bir mühit-də böyüyüb tərbiyə almışdır. Evdə hər zaman çox-lu kitab, qəzet və jurnalların olması, atasının yazı masası arxa-sında şövqlü fəaliyyəti onun həyat yo-luna əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Pro-fessor Mədəd Çobanovun ailəsində aldığı tərbiyə, zəhmətə bağlılıq, elmə sevgi onun şəxsiyyət kimi for-malaşmasında mühüm rol oynamışdır. Uşaqlıq-dan kitablara olan sevgisi, zəhmətkeşliyi onun gə-ləcəkdə ədəbi və elmi sa-hələrdə parlaq uğurlar qazanacağından xəbər verirdi.

Məktəb illərində Azərbaycan ədəbiyyatına və dövri mət-buata böyük maraq göstərən Müşfiq hə-lə erkən yaşlarından bədii yaradıcılıq və jurnalisti-ka ilə məşğul olmuşdur. Onun qələmə aldığı kiçik yazılar "Azərbaycan gəncləri", "Azərbay-can pio-neri" və digər nəşrlərdə dərc edilmiş, janr müxtə-lifliyi və ifadə tərzi ilə diqqət çəkmişdir.

1986-cı ildə Darvaz kənd orta məktəbini əla qiy-mətlərlə bitirdiyinə görə Gürcüstan Təhsil Na-zirliyinin Tərifnamə və Fəxri Fərmanı ilə təltif olunan Müşfiq Borçalı elə həmin il A.S.Puşkin adı-na Tbilisi Dövlət Pedaqoji İnstitutunun rus filo-lo-giyası fa-kültə-sinin Azərbaycan bölməsinə daxil olmuşdur. O, eyni zamanda, TDPİ-nin ictimai pe-şələr fakültəsinin jur-na-listika fakültəsində təhsil almış və həmin fakültəni Fərq-lənmə diplomu ilə bitirmişdir.

Müşfiq Çobanov Borçalı folkloru və ədəbiyyatı ilə bağlı tədqiqatlara hələ erkən yaşlarından böyük maraq göstərmişdir. Borçalı ədəbi mühiti ilə sıx tə-maslar, qədim ənənələrlə malik Darvaz kəndi isə M.Borçalının gələcəkdə borçalışünas alim ki-mi formalaşacağının müjdəçisi idi.

Əslən Borçalıdan olan ədəbiyyatşünas alimlərin bu sahədə apardıqları araşdırmaları dərindən mə-nimsəyən gənc tədqiqatçı Borçalı folkloru, mədə-niyyəti, ədəbiyyatının çox geniş və daim inkişafda olduğunu, eyni zamanda, bu zəngin mənəvi-ədəbi sər-vətin yetərincə öyrənilmədiyini də dərk edirdi. Buna görə də hələ Tbilisi Dövlət Pedaqoji İnstitu-tunda təhsil aldığı dövrdə Borçalı mədəniyyətinin, ədəbiyyatının geniş və hərtərəfli araş-dır-mağı qar-şısına məqsəd qoymuşdu. Beləliklə, gənc tədqiqat-çı Borçalını kəndbəkənd gəzir, ədəbi məclislərdə iştirak edərək ziyalılarla görüşür, Borçalı aşıqları-nın yaxınları ilə söhbətlər apararaq şifahi xalq ədə-biyyatı nümunələri toplayırdı.

### Bakı ədəbi mühiti

1988-1989-cu illərdə əsgərlik xidmətini şərəflə yerinə yetirən Müşfiq Borçalı 1990-cı ildən təhsi-lini Bakıda Nəsirəd-din Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində davam et-dir-miş-dir. Burada Azərbaycanın gör-kəmli alimləri - Afad Qur-banov, Nizami Xudiyev, Qəzənfər Ka-zımov, Abbas Hacıyev, Mürsəl Həkimov, Paşa Əfəndiyev-dən dərs alan M.Bor-çalı Gürcüstanda başladığı tədqiqatları uğurla davam etdirmişdir. O, hələ ali məktəbin IV kursunda təh-sil alarkən, ilk dəfə olaraq "Borçalı" adını özünün ilk kitabı-nın adına gətirərək 1990-cı ildə "Ağır elli Borçalı" ad-lı ədəbi-bədii almanaxı nəşr etdirmiş-dir. Sonradan tanınmış türk tədqi-qat-çısı Çingiz Alyıl-maz bu ki-tabı Türkiyə türkcəsinə çevirərək 1996-cı ildə Ər-zu-rumda nəfis şəkildə çap etdirmişdir.

1992-ci ildə ADPU-nun filologiya fakültəsini Fərqlənmə diplomu ilə bitirən M.Borçalı 1993-cü ildən "Təhsil" qəzetinin baş redaktoru, 1995-ci il-dən "Azad Azərbaycan", "Şərqin səsi", "Elm və Təhsil" qəzetlərinin baş redaktoru vəzifələrinə irə-li çəkilmişdir. Onun bu mətbu orqanlarda göstərdi-yi məhsuldar fəaliyyət təkcə Azərbaycan mətbua-tının inkişafına deyil, həm də milli-mənəvi dəyər-lərin qorunması və təbliğinə yönəlmişdi.

Bu gün Müşfiq Borçalının Azərbaycanın media məkanında oynadığı rol son dərəcə böyükdür. O, "Ziya" İnformasiya Mər-kəzinin və ZiM.Az saytı-nın təsisçisi və baş redaktorudur. Müşfiq Borçalı, eyni zamanda, Azərbaycan Texniki Universi-tetinin əməkdaşı - AzTU Press nəşriyyatının, "Ziya" qə-zetinin və "Ziya.İnfo.Az" saytının Baş redaktoru-dur. O, həmçinin, "Borçalı", "Şərqin səsi", "Elm və Təhsil" qəzetlərinin qurucusu və Baş məsləhət-çisi, eləcə də, "Zirvə" və "Zəfər" İnformasiya Mərkəzlərinin, "Borçalı" və "Yurd" nəşriyyatları-nın, "Zirve.in-fo", "Zirve.info.az", "Yurd.info.az", "elm.info.az", "Bolnisi.az", "Borcali.org" saytları-nın da qurucusu və rəhbəridir. Onun rəhbərliyi al-tında çıxan çoxsaylı mətbuat orqanları Azərbay-canda jurnalistikanın etik prinsiplərini qorumağa, jurnalistlərin peşəkar səviyyəsini artırmağa, media-nın inkişafına ciddi töh-fələr verir.

### Mavi ekranlarda

Tanınmış jurnalist Müşfiq Borçalı televiziya sa-həsində də önəmli fəaliyyət göstərmişdir. O, Azər-baycan Televiziyasında (AzTV) milli-mədəni də-yər daşıyan **bir sıra verilişlərin redak-toru olmuş-dur.** Dövlət Televiziyasının **"Xalq yaradıcılığı"** Baş redaksiyasının redaktoru vəzifəsində çalışan M.Borçalı AzTV-də yayımlanan "Dastan", "Yazı", "Sazın-sözün sehri", "Aşıq Pəri Məclisi", "Borçalı elləri" və s. verilişlərin ssenari müəl-lifi və redak-toru kimi yüksək peşəkarlıq nümayiş etdir-mişdir.

Onun redaktoru olduğu "Borçalı elləri" verilişi bu qədim bölgənin tarixi ənənələrini, zəngin folk-lor xəzinəsini, dastan mədəniyyətini, aşıq sənəti-ni, musiqi irsini geniş şəkildə işıq-landıraraq izlə-yicilərə bölgənin ruhunu hiss etdirirdi. "Aşıq Pəri məclisi" isə Azərbaycanın qədim aşıq sənətinin tanıdılması və təbliğinə xidmət edirdi.

Milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə ötürülməsi üçün bu proqramların əhəmiyyə-tini dərindən dərk edən M.Bor-çalı təkcə redaktor deyil, həm də milli mədəniyyətimizin təbli-ğatçı-sı kimi öz dəsti-xətti ilə seçilmişdir. Onun fəaliy-yəti tele-viziya tamaşaçılarının mədəni biliklərini artırmaq, Azərbaycan mədəniyyətinin qorunub saxlanılması və gələcək nəsillərə çat-dırılması is-tiqamətində əvəzsiz töhfə olmuşdur. Bu uğurun kökündə isə təkcə Müşfiq müəllimin jurnalistika-nın incəliklə-rini dərindən bilməsi, peşəkarlığı de-yil, həm də onun şəxsi möqveyi, dünyaya baxışı və mütərəqqi ideyaları dayanırdı.

M.Borçalının televiziya fəaliyyətini işıqlandı-rarkən onun bir sıra sənədli filmlərin ssenari müəllifi və redaktoru olduğunu da diqqətdən qa-çırmaq olmaz. Müşfiq müəllimin ssenari müəllifi olduğu "Şərəfli ömür yolu" (İsmayıl Ömərovun 70 illik yu-bileyinə həsr edilmiş film), "Danışan qa-yalar" (Qobustan qa-yaları haqqında sənədli film), redaktoru olduğu "Cəsur kəş-fiy-yatçı" (Qarabağ şəhidi Hicran Zülfüyevin şərəfli ömür yoluna həsr edilmiş film) sənədli filmləri tamaşaçılar tərəfin-dən böyük maraqla qarşılanmışdır.

### Borçalışünas alim

Azərbaycan mətbuatı və mədəniyyət tarixində özünəməxsus yer tutan Müşfiq Mədəd oğlu Çoba-nov bir şəxsiyyət kimi bütün yönləri ilə yaradıcı olan, elmi axtarışlarının ardıcıllığı və bədii təfəkkü-rünün orijinallığı ilə fərqlənən kamil ziyalıdır. O, hələ gənc yaşlarından qədim Borçalı bölgəsinin ta-rixi, mədəniyyəti və ədəbiyyatı sahəsində ciddi araşdırmaları ilə tanınır. Azər-bay-canın mədəni ir-sini, Borçalı mahalının zəngin tarixi və ədəbiy-yatı-nı dünyaya tanıtmaq yolunda yorulmadan çalışan Müşfiq Borçalı bu bölgəsinin ədəbi-mədəni irsi ilə bağlı çoxsaylı təd-qiqatların, kitabların müəllifidir. Alimin bu istiqamətdə qələmə aldığı sanballı mo-noqrafiyalar, dərin məzmunlu elmi məqalələr və en-siklopedik tədqiqatlar Borçalının zəngin tarixi və mədəni irsinin dərinliyinə işıq salır. Bu fundamen-tal araşdırmalar Azərbaycan ədəbiyyatının regional xüsusiyyətlərini və beynəl-xalq əlaqələrini dərindən öyrənmək baxımından zəngin mə-lumatlar verir, təkcə elmi ictimaiyyət üçün deyil, həm də geniş oxucu auditoriyası üçün xüsusi əhəmiyyət kəsb edir.

Müşfiq Mədəd oğlu Çobanov Borçalı 2016-cı ildə AMEA-nın prezidenti, Əməkdar elm xadimi, akademik İsa Həbibbəy-linin elmi rəhbərliyi ilə "Gürcüstanda Azərbaycan ədəbiy-yatı-nın inkişaf meyilləri (1960-2010)" mövzusunda namizədlik dis-sertasiyasını uğurla müdafiə etmiş və elmi fəa-liyyətində mü-hüm bir mərhələni tamamlayaraq fi-lologiya üzrə fəlsəfə dok-toru elmi dərəcəsinə la-yiq görülmüşdür.

*(Davamı 9-cu səhifədə)*

# BORÇALIDAN DOĞAN İŞIQ

## və ya SÖZÜN ZİRVƏSİ

*(Əvvəli 8-ci səhifədə)*

### Pedaqoji fəaliyyət

Vaxtilə əmək fəaliyyətinə Azərbaycan Texniki Universitetində başlayan Müşfiq müəllim bir müddət universitetdə Mətbuat şöbəsinin müdiri vəzifəsində işləyib. O, bu ali məktəbdə fəaliyyətini indi də davam etdirir, Azərbaycan Texniki Universitetinin İctimai fənlər kafedrasında yüksək peşəkarlıq və məsuliyyətlə pedaqoji fəaliyyətlə məşğul olur: bakalavr tələbələrinə "Azərbaycan dili" və "Nitq mədəniyyəti" fənlərini, magistr tələbələrinə isə "Pedaqogika" fənnini sevə-sevə tədris edir.

Öz vəzifəsinin məsuliyyətini, müqəddəsliyini dərindən dərk edən Müşfiq müəllim gələcək nəslin cavabdehliyini çiyinləri üzərində daşıyaraq çəkdiyi zəhmətin, fədakarlığı müqabilində əldə olunan uğurlu nəticələrdən zövq alır. O, tələbələrə yalnız nəzəri biliklər verməklə kifayətlənmir, həm də onların nitq mədəniyyətini formalaşdırmağa, intellektual düşüncə və təfəkkür tərzini inkişaf etdirməyə çalışır. M.Borçalının ali məktəbdə pedaqoji fəaliyyəti, onun Azərbaycan dili və mədəniyyətini yüksək səviyyədə təbliğ etməsi, elmin inkişafına verdiyi töhfələr, qabaqcıl tədris metodikası yüksək qiymətləndirilir. Tələbələrinin uğurlarını pedaqoji fəaliyyətinin əsas göstəricisi hesab edən Müşfiq müəllim gələcək nəsillərin daha savadlı və mədəni yetişməsi üçün əlindən gələni edir.

### Fəxri Fərmanlar... Mükafatlar...

Müşfiq Borçalının fəaliyyəti təkcə jurnalistika, pedaqogika və elm sahələri ilə məhdudlaşmır. O, müxtəlif ictimai layihələrdə fəal iştirak edir, milli dəyərlərin qorunub saxlanılması istiqamətində yorulmadan çalışır. Onun təşəbbüsü ilə həyata keçirilən layihələr mətbuatın maarifləndirici missiyasının gücləndirilməsinə yönəlir.

Bu fədakar əmək diqqətdən kənar qalmayıb. M.Borçalı mətbuat və mədəniyyət sahəsindəki yorulmaz fəaliyyətinə görə bir çox mükafat və fəxri fərmanlarla təltif olunub: "Abulla Şaiq", "Nəriman Nərimanov", "Zirvə", "Zəfər", "Qızıl Qələm" və s. mükafatların laureatı olan Müşfiq Borçalı dəfələrlə Fəxri Fərman, Fəxri diplom və mükafatlarla təltif olunub. O cümlədən, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Diplom və sertifikatlarina layiq görülüb.

Müşfiq Borçalı 2024-cü ildə AYB-nin təqdimatına və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında" müvafiq sərəncamına əsasən Prezident təqaüdünə layiq görülüb.

### Professor Mədəd Çobanovun yadigarı

Azərbaycanın görkəmli türkoloq alimi, filologiya elmləri doktoru, professor Mədəd Çobanovun zəngin elmi irsi, dilçilik sahəsində apardığı fundamental araşdırmalar, milli dəyərlərə bağlılığı oğlu Müşfiq Borçalının formalaşmasında əvəzsiz rol oynamışdır. Mədəd müəllimin Borçalı bölgəsinin mədəni irsini qoruyub gələcək nəsillərə ötürmək üçün göstərdiyi səylər, onun zəngin elmi fəaliyyəti və müsbət insani keyfiyyətləri oğlu Müşfiqin gələcəkdə eyni istiqamətdə çalışmasına ilham vermişdir.

Beləliklə, Mədəd müəllimin yüksək intellektual irsi, zəhmətkeşliyi Müşfiq Borçalının həm istedadlı alim, həm də vətənpərvər ziyalı kimi yetişməsində məktəb rolunu oynamışdır.

Bu gün Müşfiq Borçalı atasının - görkəmli türkoloq alim, filologiya elmləri doktoru, professor Mədəd Çobanovun ədəbi irsini yaşatmaq, onun əziz xatirəsini daim uca tutmaq üçün yorulmadan fəaliyyət göstərir.

Mədəd müəllimin ideyalarını, zəngin yaradıcılıq irsini, həyat fəlsəfəsini gələcək nəsillərə çatdırmağı özünün mənəvi borcu hesab edən Müşfiq Borçalı müxtəlif elmi və ədəbi layihələr həyata keçirir, atasının əsərlərinin nəşri və təbliği ilə məşğul olur. O, təbliğ etdiyi bu elmi irsi yalnız akademik töhfə kimi deyil, həm də milli mədəniyyətimizin ayrılmaz hissəsi kimi qoruyur. Onun atası haqqında dərin ehtiramla danışması, professor Mədəd Çobanovun xatirəsini əbədiləşdirmək üçün göstərdiyi səylər ataya olan övlad sevgisi və hörmətin ən bariz ifadəsidir.

### Və yubiley təbriki...

..."Həyatın mənası yalnız özünü başqaları üçün faydalı etməklə tapılır". Dahi rus yazıçısı Lev Tolstoyun bu məşhur kəlamı bütün duyğuları, mənəviyyatı, əməli fəaliyyəti ilə xalqa bağlı olan vətənpərvər ziyalı - M.Borçalının həyat fəlsəfəsinə aid etmək olar. Müşfiq müəllim bütün həyatını Azərbaycan mətbuatının, mədəniyyətinin və elminin inkişafına həsr etmiş həqiqi ziyalıdır.

Onun 55 illik mənalı ömür yolu, zəngin yaradıcılıq fəaliyyəti Azərbaycan jurnalistikası və ədəbiyyatı üçün dəyərli töhfədir. Xalqa hər zaman sədaqətlə xidmət edən bu vətənpərvər ziyalı bu gün də millətin, doğma Borçalı elinin inkişafı istiqamətində böyük coşğu, səmimiyyət və inamla yol getməkdədir. Müşfiq Borçalı bu əvəzsiz xidmətləri ilə Azərbaycanın mədəniyyəti və jurnalistika tarixində parlaq sima kimi daim yaddaşlarda qalacaq.

***...Çox hörmətli və əziz tələbə yoldaşım, istedadlı qələm dostumuz, dəyərli ziyalımız Müşfiq Borçalını 55 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm! Ona uzun ömür, möhkəm cansağlığı, zəngin və mənalı həyat yolu, çoxşaxəli yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulayıram!***



*Sadiq ZAMAN,*
*filologiya üzrə fəlsəfə doktoru*

*ZiM.Az*